“Sabahın alimləri” respublika müsabiqəsi hər il ABŞ-də keçirilən ISEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisinə milli seçim turudur. Müsabiqədə ölkəmizin bütün regionlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri iştirak edə bilərlər. Müsabiqənin dili Azərbaycan və rus dilləridir (ingilis dilini də bilmək şərtdir). Müsabiqədə iştirak ödənişsizdir. Şagirdlər 8 kateqoriya üzrə müsabiqədə iştirak edə bilərlər:

- riyaziyyat;
- fizika, astronomiya;
- kimya;
- biologiya (zoologiya, botanika, mikrobiologiya, genetika və molekulyar biologiya, biokimya);
- tibb və sağlamlıq;
- ekologiya, ətraf mühitin idarə olunması;
- mühəndislik;
- kompüter elmləri.

Qeyd olunan müsabiqənin keçiriləcəyi tarix əvvəldən elan edilir.

Şagirdlər https://sabahinalimleri.edu.az/ portalında qeydiyyatdan keçərək buradakı lazımi formaları doldurmaqla müvafiq elektron ünvanlara göndərirlər.